FOR AZERBAIJAN
LEAVE YOUR MARK



2-İLLİK

# Fəaliyyətin icmalı

Fəxri qurucu üzvlər üçün



# Əziz dostlar!

2020-ci ilin payızında "For Azerbaijan" təşkilatını təsis etmək məqsədilə bizim bir araya gəlməyimizdən, o əlamətdar tarixi məqamdan iki il keçir. Hisslərin coşduğu həmin dövr bizim ümumi məqsəd naminə birləşməyimizə səbəb oldu. Bu addım, Azərbaycanı Vətən bilən və ona xüsusi sevgi bəsləyən və bizi bir birimizə bağlayan ilmələrin yenidən vurulmasında iştirak etmək istəyində olan, dünyanın hər bir guşəsində yaşayan Azərbaycanı sevən insanların səylərinin təzahürüdür. Belə bir emosional məqamı "For Azerbaijan" kimi qısa müddət ərzində nüfuz qazanmış, davamlı fəaliyyət göstərən və getdikcə daha çox uğurlara imza atan bir təsisata çevirməyə müvəffəq olduğumuzu bu gün əminliklə deyə bilərik.

İdarə Heyəti adından "For Azerbaijan" təşkilatının bir zamanlar nəzərdə tutduğumuz kimi, dayanıqlı və təsir yaratmaq iqtidarında olan təsisata çevirməyi bacardığımızı hər birinizə yazılı şəkildə bildirirəm. Bu hesabat sizin də iştirak etdiyiniz, bugünədək sərgilənən səylərimizin nəticələrini əks etdirməklə gələcək fəaliyyətimizlə bağlı baxışlarımızın üfüqlərini müəyyən edir.

**Samir Süleymanov**

"For Azerbaijan" İdarə heyətinin sədri

# İsmarıcımız

## FA güclü tərəfdaşlara və inkişaf potensialına malik olan mötəbər bir təşkilatdır

**Nəzərəçarpan nəaliyyətlər:** Fəxri qurucu üzvlər, korporativ xeyriyyəçilik ve kampaniyalardan təxminən 200 000 ABŞ dolları məbləğində vəsait əldə etmişik. Əlavə olaraq, Azərbaycanda korporativ sponsorlar və tərəfdaşların töhfələri nəticəsində 300 000 ABŞ dolları toplanmışdır. Proqram və ianə kampaniyalarımızı 700 fərdi şəxs dəstəkləyib. İki il ərzində iki mühüm və böyük, həmçinin əhəmiyyətli təsir gücünə malik bir neçə layihəni həyata keçirmiş və tərəfdaşlıq məqsədilə bizə müraciət edilmiş daha iki layihəni dəstəkləmişik. İşlək bank hesabları olan ABŞ-ın xeyriyyə təşkilatı kimi Azərbaycanda rəsmi qeydiyyatdan keçmişik, çevik idarəetmə strukturu yaratmaqla işçi heyətini komplektləşdirmişik, yerli ofisin fəaliyyətini təmin etmişik.

## İlk növbədə, FA təşkilatının təməl prinsiplərinə sadiq qaldıq:

1. **Şəffaflıq:** Əldə etdiyimiz vəsait və xərclərimiz barədə illik hesabatda ətraflı açıqlamalar vermişik. Bu hesabatda əlavə təfərrüatlar da var. İnternet saytımızda bütün töhfə və ianələri real zaman rejimində sərgiləyən aktiv bölmə təqdim olunur. Bununla da hər donorun ianələrini rahat izləmə imkanı yaradılıb. İdarə heyyətinin müntəzəm həftəlik iclaslarına qatılmaq istəyində olan hər kəsə açığıq.

2. **Təsiredici:** Resurslarımızdan faydalı istifadə etmək imkanını yaratmış, mürəkkəb məsələlərin həlli yollarını bariz şəkildə nümayiş etdirmiş layihələri müəyyənləşdirib həyata keçirmişik. Hazırki hesabatda bu layihələrin təfərrüatları təqdim olunub.

3. **Dayanıqlı:** Əməliyyat çərçivəmiz, təsir yaratmaq bacarığımız, fəxri qurucu üzvlərdən müntəzəm ianə axınını saxlamaq və yekun nəticələri ilə ölkədə davam edən ictimai təşəbbüslərə qatqı vermək FA təşkilatının dayanıqlı qalmasına şərait yaradıb.

4. **Genişlənən:** Üçüncü tərəflər, ianə kampaniyaları, sponsor təşkilatlar və fərdi tərəfdaşların maliyyə dəstəyi ilə təsisçi üzvlərdən daxil olmuş əsas ianələrin təsir gücünü artırmaqla xüsusi uğurlara imza atmışıq. Sərhədləri aşaraq, gözləniləndən daha çoxuna nail olmuşuq.



## İkinci: Fəaliyyətimiz təsisedici sənədlərdə ifadə edilmiş üç əsas istiqamət üzərində davam etdirilir:

**1. Sağlamlığın bərpasına dəstək:** : Hərbi münaqişələrdən əziyyət çəkmiş ailələrə yaşadıqları travmalardan qurtulmaq üçün yardım göstərmək. "For Azerbaijan" təşkilatının yaranma səbəbləri nəzərə alınmaqla bunu ən böyük narahatlıq yaradan və yardım göstərilməli sahə hesab edirik. 44 günlük Vətən müharibəsində valideynlərindən birini itirmiş 78 yeniyetmə ilə "Qaliblər Düşərgəsi" adlı yay düşərgəsi təşəbbüsünə başladıq. Düşərgənin fəaliyyəti əsasən uşaqların sosial reabilitasiyası, fiziki və mənəvi sağlamlığının təmin edilməsi üzərində qurulmuşdu. Çox sayda dövlət və özəl qurum bu modelimizi bizdən sonra təkrarlayaraq tətbiq etdi. Model gözlədiyimizdən daha uğurlu nəticələr verdi. Bundan başqa, təxminən 40 müharibə veteranı üçün psixoloji reabilitasiyanı təmin etmiş, ölkədə bu sahədə müvafiq bacarıqların çatışmazlığını aşkara çıxaran pilot proqramımızı yekunlaşdırdıq. Bunun nəticəsində Azərbaycanda travma sonrası stress pozuntusu (PTSP) hallarını müalicə etmək üçün psixoloqların potensialının gücləndirilməsi məqsədilə ən böyük və mürəkkəb layihəmizi hazırladıq. Layihə üzrə təlimlər ABŞ Müdafiə Nazirliyinin Veteranlarla İşin Təşkili və Maliyyələşdirilməsi İdarəsinin, həmçinin akademik dairələri təmsil edən ekspertlərə həvalə olundu. Layihə, həmçinin ortaq elmi tədqiqat, yeni müalicə protokollarının və qiymətləndirmə vəsaitinin ölkə şəraitinə uyğunlaşdırılmasını özündə ehtiva edir. Bütövlükdə bu layihə, PTSP sahəsində Azərbaycanda indiyədək mövcud olmamış iki müalicə metodologiyasının (koqnitiv işləmə terapiyasının və yazılı ekspozisiya terapiyasının) tətbiqinə əsaslanır.

**2. Tələbatların qarşılanması:** Maliyyə sıxıntısı yaşayan ailələr üçün zəruri ehtiyacların təmin edilməsində dəstək. Bu istiqamət əsasən kəskin maliyə ehtiyacı yaşayan ailələrə yardım etməyin vacibliyini hesab etdiyimiz qısamüddətli tədbirlərə yönəlir. Bu işimizin qayəsi birlikdə çalışdığımız icma üzvlərinin əsas tələbatlarının qarşılanmasını nəzərdə tutan xüsusi fəaliyyət idi. Beləliklə də, müharibədən sonra biz məhdud sayda seçilmiş, təxmini 140 ailəyə birbaşa yadım göstərdik. Bu qəbildən olan dəstəklərimiz uşaq bağçalarında xüsusi tədbirlər, KOVİD-19 koronavirus pandemiyası dövründə məsafədən (distant) təhsil, "Qaliblər Düşərgəsi" layihəsinin iştirakçıları üçün tibbi yardım və müalicə təminatını əhatə etmişdir. Üstəlik, oxşar tədbirlər, o cümlədən yaratdığımız onlayn dəstək platforması vasitəsilə müharibə veteranlarının ailələri üçün onlayn canlı konsert təşkil etməklə əlavə maliyyə vəsaitinin toplanılmasını dəstəklədik.

**3. Gələcəyə yönəlik fəaliyyət:** : İcmalara potensiallarını tam inkişaf etdirmək məqsədilə yardım etmək. Gələcəyə yönəlmiş bu fəaliyyətimizi "Yay düşərgəsi" layihəsinin iştirakçıları və şəhid övladlarının analarına davamlı dəstək üzərində cəmləşdirmişik. "Sağlamlaşdıran icma" yanaşmasını ölkəmizdə tətbiq edə bildik. Belə ki,

uşaqları qrup şəklində bir araya gətirərək onlara könüllülərimiz, həmçinin sosial işçilərimiz və peşəkar psixoloqlarımız vasitəsilə davamlı əsasda mentorluq keçdik və emosional dəstək verdik. İndi isə bu uşaqları ali və peşə təhsili məktəblərinə qəbul prosesinə hazırlayırıq. Həmin uşaqların analarının sosial və iqtisadi həyat qurmaq cəhdlərini dəstəkləməyə səy göstərmişik. Digər təşkilatla tərəfdaşlıq çərçivəsində Azərbaycanda ali təhsil alan 20 gənc xanım üçün tələbə təqaüdünü təmin etmək məqsədini daşıyan xüsusi bir kampaniyanı həyata keçirmiş, Türkiyədə psixologiya və sosiologiya üzrə təhsil alan və xüsusi ehtiyacları olan iki bacının təhsil haqqının ödənilməsini təmin etmişik.



# Baxışımız

## Daha güclü “ For Azerbaijan”naminə çiyin-çiyinə çalışmaq

Son iki il ərzində mötəbər ad qazanmış sağlam, həmçinin layihələrini çeşidləyən və icra edilməsində effektiv yanaşmanı yaradan bir təşkilat olmuşuq. Bu zaman kəsiyində fəxri qurucu üzvlərin dəstəyi səngiməmişdir. Daha bir vacib əhəmiyyət kəsb edən digər amil isə ictimai xidmətlərin göstərilməsində boşluqları və konkret sahələrdə mövcud olan potensialın inkişafına təsir edən cəhətləri aradan qaldırmağa qadir olan, ölkəyə gətirilə bilən dəyəri nümayiş etdirmişik. İrəliyə inamla addımlayaraq, işimizi yaratdığımız təməl üzərində qurmaq və daha çox müsbət təsir yaratmaq niyyətindəyik.

## Daha güclü təşkilat

Fəxri qurucu üzvlər “For Azerbaijan” təşkilatının bünövrəsidirlər. Onların güclü dəstəyinə arxalanır, üzvlüklə bağlı ciddi uyğunluq meyarlarımızı qorumaqla üzvlərimizin sayını artırmaq istəyirik. Hər təsisçi üzvə ən azından bir yeni namizədi müəyyən etmək üçün müraciət etmək istərdik. Unutmayaq ki, təsisçi üzvün ianə etdiyi hər bir ABŞ dollarını digər tərəfdaşların dəstəyi ilə ən azından üç dəfə artıra bilirik. Bununla, “For Azerbaijan” təşkilatının qarşıdakı illər ərzində fəaliyyətinə davam edə biləcəyinə şərait yaratmaqla ianələrinizin üçdə ikisinə qənaət etmək imkanını təmin etmişik. Növbəti iki il ərzində “For Azerbaijan” təşkilatının İdarə Heyətində təmsil olunmaq şərtilə əlavə yeni ölkə nümayəndəliklərinin təsis edilməsini istərdik.“For Azerbaijan” təşkilatının daha yüksək nəticə verə biləcəyini və xidmətlərinə daha yüksək tələbatın olduğu bizə aydın və aşkar şəkildə bildirilib.

## Özünü doğrultmuş strategiya

Fəaliyyət dövrünün hər mərhələsində nisbətən böyük və mürəkkəb, tərəfimizdən birbaşa icra və idarə edilən, digər tərəflərin tərəfdaş və ya sponsor qismində iştirakına şərait yaradan mühüm bir layihəni icra edəcəyik. Fəaliyyətimizin ilk ili ən vacib və əlamətdar layihəmiz “Qəliblər Düşərgəsi” adlı yay düşərgəsi idi. İkinci mühüm layihəmiz yerli psixoloqların potensialının gücləndirilməsi olacaq. Mühüm layihələrə paralel əlavə olaraq, qurduğumuz icmalara (tələbələr, analar və təlim iştirakçılarına) göstərilən davamli dəstəyə birbaşa nəzarət edəcəyik. Üçüncü tərəflərin idarə etdiyi, qrant vəsaiti, yaxud dəstək platformamız vasitəsilə əlavə edilmiş maliyyə təminatı hesabına maliyyələşdiriləcək proqramlar vasitəsilə fəaliyyətimizin buraxdığı izi dərinləşdirmək niyyətindəyik. Yüksək hesabatlılıq və cavabdehlik standartlarını qorumaqla bu layihələrin icrasını üçüncü tərəflərə həvalə edəcəyik.

## Tərəfdaşlığın təkmilləşdirilməsi

Özümüzü Azərbaycanda korporativ məsuliyyət proqramları üzrə arzuolunan tərəfdaş qismində yüksəltməyə çalışacaq, Bakı filialımız və Azərbaycanda fəaliyyət göstərən böyük şirkətlərdə nümayəndələrimiz vasitəsilə nailiyyət və bacarıqlarımızı bariz şəkildə nümayiş etdirəcəyik.



# FA heyəti

## Fəxri qurucu üzvlər

İşinin peşəkarı olan, 50-dən çox sadiq fəxri qurucu üzvlərimiz FA təşkilatının ən yüksək rəhbər orqanıdır.

### İdarə heyəti



Samir Süleymanov

**Sədr**

Dünya Bankı və Beynəlxalq Maliyyə Fondunda 20 ildən çox peşəkar təcrübə



Ülviyyə Zeynalova-Bockin

**Üzv**

Dentons şirkətində partnyor və əməliyyatlar üzrə idarəedici direktor



Kazım Kazımov

**Üzv**

"Vellinqton Menecement" şirkətində icraçı direktor



Tural Bədirxanlı

**Üzv**

"Solid Şeyp" şirkətinin baş icraçı direktoru və təsisçisi

### Məşvərət Qrupları

#### Məşvərət Şurası

Müzakirə edilən məsələlərə və layihələrə dair səriştəsi olan və ya maraq göstərən təsisçi üzvlərin töhfəsindən yararlanaraq İdarə Heyətinin əsas məsələlər üzrə xüsusi təyinatlı məşvərət orqanı kimi fəaliyyət göstərir

#### Elmi Məşvərət Şurası

**Co Ruzek, FeD,ABŞ, MN**
Veteranlarla İşin

**Cəmilə İsmayılova,FeD**
Psixiatr, Psixi Sağlamlıq Mərkəzi. Tədqiqat qrupunun rəhbəri

**Günel Muradova**
**Klinik Psixoloq**
**Psixi Sağlamlıq Mərkəzi**

### İcra heyəti

**Emil Həsənov**
Bakı filialının baş müdiri

**Fəridə Alışova**
Bakı filialında layihələr üzrə əlaqələndirici

**Elnur Kələntərov**
Proqramlar üzrə menecer



## Yerli Məşvərət qrupu

Mövcud layihənin mahiyyəti üzrə yerli səriştəni özündə ehtiva edən bu Qrup ölkədaxili rəhbər heyətə praktiki işin aparıldığı yerlərdə təsirli nəticənin əldə edilməsinə yardım göstərir



## FOR AZERBAİJAN KÖNÜLLÜLƏRİ

Gündəlik işin aparılmasına əvəzsiz dəstək verən 20 sadiq gənc

# Maliyyə təminatı

## Cəmi ianələr 512,647 ABŞ dolları

### Fəxri qurucu üzvlər

Fəxri qurucu üzvlər FA təşkilatının əsas maliyyə təminatını saxlamaq məqsədilə təsdiq edilmiş məbləğdə aylıq Ödənişlər edirlər.




### Korporativ sponsorlar

Korporativ sosial məsuliyyət proqramlarına uyğun olaraq konkret layihələri dəstəkləyən Şirkətlər




### Ictimaiyyət

İctimai vəsaitin toplanması təşəbbüsləri vasitəsilə əldə edilmiş fərdi ianələr




### Digər mənbələr

Pay əsaslı ödənişlər, fəxri qurucu üzvlərin çalışdığı təşkilatların etdiyi ödənişlər, yaxud natura ilə ianə şəklində əldə edilmiş vəsait




## Ayrılmış vəsait və xərclər



# Layihələr

## 01. Peşəkar psixoloqların potensialının artırılması

Bu layihənin məqsədi yerli peşəkar psixoloqlara təlim keçməklə və onları müvafiq resurslarla təmin etməklə post travmatik stress pozuntusu (PTSP) hallarının müalicəsində müasir yanaşmaları Azərbaycana gətirməkdir. Layihənin sonunda 50-dən çox yerli peşəkar PTSP hallarının müalicəsində ən yüksək nəticə verən və hazırda Azərbaycan üçün tam yeni iki yanaşmanı, Koqnitiv İşləmə Terapiyasını (KİT) və Yazılı Ekspozisiya Terapiyasını (YET) tətbiq etməyə hazır olacaq. "For Azerbaijan" təşkilatı, PTSP hallarının müalicəsi sahəsində fəaliyyət göstərən dünya səviyyəli ekspertləri və təsisatları layihəyə birbaşa praktiki müstəvidə cəlb etmək üçün "Paşa Sığorta" ASC tərəfindən spolnsorluq dəstəyinin təmin edilməsinə müvəffəq olmuşdur.

Layihənin PTSP ilə yaşayan pasiyentlərin müalicəsində dövlət siyasətinin iştirakını formalaşdırmaq imkanı var. Tələb olan minimum pasient sayının və əldə edilən biliklərin peşəkarlar arasında yayılmasını təmin etmək məqsədilə "For Azerbaijan" təşkilatı AR Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Sosisal Xidmətlər Agentliyi ilə tərəfdaşlıq edir.Layihənin sonunda ərsəyə gətiriləcək kitab, təcrübə vəsaiti və protokollar peşəkar psixoloqların fəaliyyətinə yeni istiqamət verən müfəssəl işplanı kimi təqdim ediləcək.



Layihə mərhələlərlə icra ediləcək. Belə ki, ilkin mərhələdə onlayn təlim kursları, seminarlar və praktiki terapiya ilə əlaqədar bir neçə ay davam edəcək superviziyalar olacaq, sonra isə müalicə metodologiyasına dair Azərbaycan dilində iki kitab nəşr olunacaq. Üçüncü və dördüncü mərhələlərdə görülən işin miqyasının artırılmasına vəsilə olan ABŞ Müdafiə Nazirliyinin Veteranlarla İşin Təşkili və Maliyyəşləşdirilməsi İdarəsi tərəfindən yaradılmış Mobil tətbiq proqramının Azərbaycandilli auditoriya üçün istifadəyə verilməsi, həmçinin layihə nəticələrinin akademik təməlini qurmaq məqsədilə Səhiyyə Nazirliyi yanında Psixi Sağlamlıq Mərkəzinin və ABŞ ekspertlərinin təlim təcrübəsi əsasında elmi-tədqiqi araşdırmaların aparılması və yeni nəşrlərin hazırlanması daxildir.

## 02. "Qaliblər Düşərgəsi" adlı yay düşərgəsi 2021

Bu layihənin məqsədi xüsusilə kövrək yaş çağında qəfil itkidən sarsılmış 78 yeniyetməyə dəstək olmaq idi. Peşəkarlarla məsləhətləşdikdən və onların dünyanın müxtəlif bölgələri ilə bağlı təcrübəsindən yararlanaraq bu insanlar arasında gələcək illərdə güclü münasibət bağlarını təmin edəcək icma yaradaraq həmin şəxslərin bir araya gətirilməsinin bu cür miqyasda yardımın göstərilməsində ən təsirli vasitə olacağı qənaətinə gəlinmişdir. İcma üzvləri yalnız belə bir mühitdə bir-birinə daxili dünyasının sirlərini aça və bir-birinin mənəvi sağlamlaşmağına yardımçı ola bilər. Yalnız belə bir icma daxilində ünvanlı peşəkar yardıma ehtiyacın olub olmamasını kəşf etmək mümkündür. Bu, özünü doğrultmuş yanaşmadır.

Uşaqlar bir-birilə ömürlük dostluq bağlarını yarada bildilər və bir-birinə qarşı etibar qazandılar. Düşərgə iştirakçılarının gəldiyi qənaətə əsasən, əhəmiyyət kəsb edən digər amil də bu modelin bütün ölkə miqyasında- müvafiq icmalar yaratmaqla- çox sayda və daha böyük təsisatlar tərəfindən tətbiqi və təkrarlanması idi. Bu layihəni tərəfdaşlıq şəklində ərsəyə gətirməklə təsisçi üzvlərin ianələrinin digər tərəfdaşlar hesabına az qala üç dəfə artırılmasına müvəffəq olmaq üçün əzmlə fəaliyyət göstərdik. Fərdi şəxslər, özəl şirkətlər, dövlət qurumları və gənc könüllü təşkilatları bu layihəni uğurlu etmək üçün "For Azerbaijan" təşkilatı ilə birlikdə çalışdı. "For Azerbaijan" təşkilatının həmin uşaqlarla təması bu gün də davam edir və biz onlara həyatlarının növbəti mərhələlərində də dəstək olacayıq



# Layihələr

## 03. Psixoloji reabilitasiya (pilot mərhələ)



Layihə, psixoloji sağlamlıq sahəsində məsləhətləşmələr və psixoloji reabilitasiyaya ehtiyacı olan təxmini 37 ailəyə yardımın göstərilməsinə şərait yaratmış, bu halların müalicəsində çatışmazlıqların müəyyən edilməsi baxımından özünü doğrultmuş və psixoloqların potensialının gücləndirilməsi sahəsində daha irimiqyaslı bir layihə üçün olduqca faydalı olmuşdur. “For Azerbaijan” təşkilatı peşəkar psixoloq və psixiatrlar komandasını formalaşdırmağı bacardı. Komandamız PTSP riskinin mənfi təsirlərini azaltmaq və münaqişə halının təsirinə məruz qalmış şəxslərin psixoemosional (hisslərə qarşı psixoloji reaksiya) durumunun stabilləşməsinə yardım etmək məqsədilə müalicə planları, kurslar və sərbəst tədris materiallarını tərtib etmişdir. Əlavə olaraq, “For Azerbaijan” təşkilatı pasientlərin qiymətləndirilməsinə yardımçı olmuş özəl xəstəxana və psixi sağlamlıq mərkəzi ilə birlikdə işləməyə başlamışdır.

## 04. Məsafədən (distant) təhsil



Yüksək keyfiyyətli təhsil uşaqların gələcəkdə şəxsi rifahını təmin etmək və ailələrinə dəstək olmaq üçün əsas faktorlardan biridir. Bununla əlaqədar olaraq, hədəf götürdüyümüz ailə qruplarında uşaqların təhsil inkişafını dəstəkləmək qərarına gəldik. Bunun üçün “For Azerbaijan” təşkilatı Birləşmiş Krallıqda fəaliyyət göstərən, müharibə veteranları və həlak olmuş hərbiçi övladları üçün ingilis və rus dillərində riyaziyyat və kodlaşdırma (kompüter proqramları) kimi müxtəlif çeşiddə maraqlı kurslar yaratmış, “NATAVAN” məsafədəən (distant) təhsil platforması ilə əməkdaşlıq etmişdir. Bu layihəyə həmçinin Azərbaycanda yaşayan aztəminatlı ailələrin uşaqlarını da cəlb etmişdik.

## 05. Qızların təhsilinə dəstək



“For Azerbaijan” təşkilatı Nyu Yorkda qərarlaşmış qeyri-kommersiya təşkilatı ilə tərəfdaşlıq çərçivəsində Azərbaycanda 20 qızın ali təhsilinə dəstək platformasını yaratmışdır. Bu kampaniya vasitəsilə 370-dən çox fərdi şəxsdən ianə daxil olmaqla tərəfdaşımız olan qeyri-kommersiya təşkilatı tərəfindən seçilmiş 20 qıza aylıq təqaüdün verilməsi mümkün olmuşdur. Əlavə olaraq, Türkiyə universitetlərində psixologiya və sosiologiya üzrə təhsil alan digər iki qıza dəstək olmaq qərarına gəldik. Onların seçdiyi ixtisas töhfə vermək öhdəliyini üzərlərinə götürdükləri icma əsaslı reabilitasiya proqramımıza uyğun gəlir. Gənc qadınların həyatında dönüş yaratmaq “For Azerbaijan” təşkilatına qürur verən bir nailiyyətdir.



# Layihələr

## 06.Həyat şəraitinin yaxşılaşdırılması

“For Azerbaijan” təşkilatının təsis edildiyindən dərhal sonra və təsisçi üzvlərimizin səxavətli dəstəyi nəticəsində başladığımız ilk layihə vasitəsilə Azərbaycanın bölgələrində yaşayan, KOVİD-19 koronavirus pandemiyasının, silahlı münaqişələrin və yoxsulluğun yaratdığı sıxıntıların məngənəsinə düşmüş təxmini 140 ailəyə dəstək olduq. Bir neçə ay ərzində həmin ailələrin çoxu “For Azerbaijan” təşkilatından zəruri ehtiyaclarını qarşılayan aylıq yardımlarla təmin edildi. Ərzaq zənbillərini almış və evlərinə isti su və istilik sistemi çəkilmiş şəxslər yaşadıqları böyük sevincdən hisslərini sözlə ifadə edə bilməmişdilər. Bu layihəni həyata keçirmək üçün “Qırmızı ürəklər” fondu və könüllülər ordusu ilə tərəfdaşlıq etmişdik.



## 07. Ana və uşaq

Təşkilat daxili pedaqoq-psixoloq Məlahət Kazıbekovanın idarə etdiyi bu layihə travmalardan azad olmaq baxımıdan icma əsaslı yanaşmanı ehtiva edir. Münaqişə zamanı valideynlərindən birini itirmiş uşaqlar və şəhid xanımları arasında psixoloqun nəzarəti altında ünsiyyət baş tutmuşdur. Bu səpkidə təmas, ana və uşaqlar üçün qarşılıqlı ünsiyyətdə olmaq, yaşadıqları hadisələri bölüşmək, bir araya gələrək icma qurmaq və üzləşdikləri travmalardan birlikdə qurtulmaq məqsədi daşımışdır.



## 08. “Qarabağ” konserti

“For Azerbaijan” təşkilatı öz dəstək platformasını bizimlə həmfikir olan şəxslərin xeyriyyə kompaniyası üçün səfərbər etmişdir. ABŞ və Azərbaycandan incəsənət adamları, o cümlədən müğənnilər bu kampaniyaya qoşulmuşdular. Beləliklə, “For Azerbaijan” platforması vasitəsilə psixoloji dəstək xidmətləri üçün 15 000 ABŞ dolları civarında ianə toplanılmışdır.



# Təsirli nəticə

“For Azerbaijan” təşkilatının təsirli nəticəyə nail olmaq fəlsəfəsi “rəqəmlərdən savayı” prinsiplərdən də asılıdır. Təməl fəaliyyət prinsiplərimiz habelə, arxalandığımız istedadlar və peşəkarlar komandasının potensialından tam xəbərdar olaraq “For Azerbaijan” təşkilatının əməliyyat çərçivəsinin özəyini fəaliyyət miqyasının genişləndirilməsi təşkil edir. Resurslarından səmərəli istifadə etməklə “For Azerbaijan” təşkilatı dövlət qurumları və digər qeyri-kommersiya təsisatları ilə daha geniş miqyasda tətbiq ediləcək bir modeli təmin edə bilən mürəkkəb layihələrə başlamaq zərurəti ilə üzləşib. Bu yanaşma effektiv nəticə verdi və biz bu missiyaya davam edəcəyik.

“For Azerbaijan” təşkilatı maliyyə vəsaitinin donorlardan benefisiarlara rəvan axınını təmin edən müasir bir platforma yaradıb. Bir neçə digər xeyriyyə təşkilatları yüzlərlə resipientə əvvəllər mümkünsüz olan çıxışı təmin etmək məqsədilə bu platformadan istifadə edib.

Peşəkar psixoloqların potensialının gücləndirilməsi layihəsi ilə Azərbaycanda iki tam yeni müalicə üsulu tətbiq ediləcək. Layihə çərçivəsində təlimi başa vuran iştirakçılarımız qarşıdakı illərdə yüzlərlə insana yardım etmək məqsədilə zəruri bacarıqlara yiyələnmiş ilk peşəkarlar nəslini təmsil edəcək.

“Yay düşərgəsi” modeli eyni qəbildən olan layihələrin ilk tərtibat quruluşu kimi bir neçə dövlət qurumları və xeyriyyə təşkilatlarının müvafiq ehtiyaclarına uyğun gəlmişdir. Hər il yüzlərlə uşaq ömürlük dostluq bağlarını yaratmaqla bu proqramlardan faydalanır.

“Ana və uşaq” layihəsi ilə yaşanan travmalardan qurtulmaq üçün icma əsaslı yanaşma tətbiq edilmişdir. Bu yanaşmanın dönüş yaradan təsir gücü sübut və geniş tətbiq edildikdən sonra insanların həyatında yaşanan müsbət nəticələr ən böyük dəyərləri aşacaq.

## Bununla, “For Azerbaijan” müsbət davranışlara təkan və rəvac verməkdədir



**Yüzlərlə könüllü “For Azerbaijan” layihələrinə dəstək olub**



**700-dən çox şəxs “For Azerbaijan” təşkilatının vəsait toplanışı təşəbbüslərinə ianə edib**



**Minlərlə şəxs “For Azerbaijan” ideyalarına sosial şəbəkələrdə qoşulub və onları paylaşıb**

FOR AZERBAIJAN

LEAVE YOUR MARK

www.forazerbaijan.org

# BİZİMLƏ ƏLAQƏ

info@forazerbaijan.org

+994 12 404 29 11

2210 Mount Vernon Ave, Suite 117
Alexandria, VA 22031, US

Baku White City Office Building 25
Nobel Ave, Baku, Azerbaijan